| Ümumi məlumat | Fənnin adı, kodu və kreditlərin sayı | Psixologiyaya Giriş. Uşaq inkişafı, PSYC, 3 kredit | |
|---|---|---|---|
| | Departament | Psixologiya Departamenti | |
| | Proqram (bakalavr, magistr) | Bakalavr | |
| | Tədris semestri | Yaz 2024 | |
| | Fənni tədris edən müəllim | Aytac S. Sahil (MSc) | |
| | E-mail: | aselimova@khazar.org | |
| | Mühazirə otağı/Cədvəl | **Cümə axşamı** | |
| | Məsləhət saatları | (əvvəlcədən razılaşdırılmış saatda) | |
| **Prerekvizitlər** | - | | |
| **Tədris dili** | Azərbaycanca | | |
| **Fənnin növü (məcburi, seçmə)** | Məcburi | | |
| **Dərsliklər və əlavə ədəbiyyat** | **Əsas Ədəbiyyat**<br>**1.** Atkinson&Hilgard- İntroduction to Psychology 16th edition<br>**2.** Rod Plotnik, Haig Kouyoumdijan – Introduction to Psychology 9th Edition<br>**3.** James W.Kalat - İntoruction to Psychology 10th edition (2013)<br>4. Daniel N. Robinson – A students Guide to Psychology | | |
| **Kursun vebsaytı** | Kursla bağlı olan bütün vəsaitlər, materiallar, syllabus, əlavə oxu materialları, kursla bağlı məlumatlar micrasoft teams proqramında sinifin file-lar bölməsinə yerləşdirilib. Əlavələr oluna bilir, bunun üçün davamlı həmin bölməni ziyarət edin. | | |
| **Tədris metodları** | Mühazirə | + | |
| | Qrup müzakirəsi | + | |
| | Kitab təhlili | + | |
| | Tapşırıqlar | + | |
| | Sənədli film | + | |
| **Qiymətləndirmə** | ***Komponentləri*** | ***Tarix/son müddət*** | ***Faiz (%)*** |
| | Əlavə oxu (kitab) | semestr ərzində | 15 |
| | Aktivlik və mövzulara dair kiçik tapşırıqlar | semestr ərzində | 15 |
| | Quiz | Mid və final öncəsi | 10 |
| | Aralıq imtahanı | Aprel 2024 | 30 |
| | Final imtahanı | İyun 2024 | 30 |
| | Yekun | | **100** |
| **Kursun təsviri** | Psixologiya insanın hiss, düşüncə və davranışlarını öyrənən elmdir. Fənn psixologiyanın tarixi və kökləri, psixi proseslər, insan inkişafı, şəxsiyyət və psixoloji problemlər kimi mövzuları əhatə edir. | | |
| **Kursun məqsədləri** | • əsas psixoloji fikirlərin necə yarandığını bilmək<br>• psixoloji yanaşmaların necə ortaya çıxdığını və inkişafını bilmək<br>• psixoloji araşdırmalar haqqında məlumatlanmaq<br>• psixi proseslərin təbiətini anlamaq və yaxşılaşdırma yolları haqqında düşünmək<br>• təməl düşünmə, davranış formaları, səbəblər və tənzimləmə yolları ilə tanışlıq<br>• insan inkişafına ümumi baxış | | |

<table>
<tr><td>Tədrisin (öyrənmənin) nəticələri</td><td>Kursun sonunda tələbələr aşağıdakıları edə biləcəklər:<br>1. Psixologiyanın yaranmasına təkan verən amilləri bilir.<br>2. Psixologiya tarixindəki əsas elm adamları ilə tanışdır.<br>3. Psixologiya sahəsindəki son və marqlı tədqiqatlarla tanışdır<br>4. Psixi prosesləri sıralaya fərqləndir bilir<br>5. İnsan inkişafının əsas prinsipləri, xüsusiyyətləri haqqında məlumatlıdır<br>6. Uşaq şəxsiyyətinin inkişafının əsas komponentlərini və düzgün yanaşmanı bilir.</td></tr>
<tr><td>Qaydalar (Tədris siyasəti və davranış)</td><td>• Dərsdənkənar oxu- təhvil tarixləri əvvəlcədən təyin ediləcək günlərdə 2 səhifə həçmində ( word sənəd) həm kitabdan xülasə, həm də öz münasibətinizin əks olunduğu (təhlil) bir tapşırıq növüdür. Verilmiş 2 kitabı əvvəlcədən bildirilmiş tarixlər üçün oxumaq, qeydlər aparmaq və bu qeydlər əsasında qrup müzakirəsinə qoşulmaq nəzərdə tutulur. Kitablar sonadək oxunmalı, təhlil hazırlayarkən – kitabı şəxsən oxuduğunuz, anladığınız, üzərində düşündüyünüz və öz münasibətinizi bildirdiyinizi əks etdirməniz vacibdir.<br>Kitablar:<br>1. İyi hiss etmek<br>2. Necə danışmalı ki, uşaqlar dinləsinlər<br><br>• Aktivlik və mövzulara dair kiçik tapşırıqlar<br><u>Aktivlik</u>- bu verilmiş tapşırıqların əvvəlcədən oxunularaq dərsə gəlinməsi və müəllimlə birgə o mövzunu izah etmək, suallar verməklə göstərdiyiniz fəaliyyətdir.<br><u>Kiçik tapşırıqlar</u>- bu çox az saylı test və ya hər hansı mövzu ilə bağlı öyrənmə səviyyənizi yoxlayan açıq sual şəklində ola biləcək tapşırıqlardır. Keçiriləyi təqdirdə müəllim 1 həftə öncə bu haqda məlumat verir.<br>• Quiz – aralıq və final imtahanından öncəki həftə keçirilir. Test və boşluqları doldurma və ya doğru-yanlış formasında ola bilir.<br>• Aralıq imtahanı- Dekanlıq tərəfindən təyin olunmuş tarixdə aprel ayının 2-ci həftəsindən etibarən keçirilir. Aralıq imtahanına düşən suallar həmin tarixə qədər keçirilmiş materiallardan ibarət olur. Əsasən test ağırlıqlı olsa da, bir neçə açıq suala da yer ayrılır.<br>• Final imtahanı- Semestrin sonunda (iyun) keçirilir. Final imtahanına düşəcək sualların 80% aralıq imtahanından sonra keçirilmiş mövzulardan, 20% isə aralıq imtahanından əvvəl keçirilmiş mövzulardan ibarət olur. Bu 20%-lik hissə imtahanöncəsi tələblərlə birlikdə müzakirə edilərək seçilir.<br>Quizlərdə eləcə də aralıq və final imtahanlarında suallar yalnız keçirilmiş mövzulardan salınır. Suallar əsasən test, açıq və yarımaçıq (tamamlanmalı) tipdə olur.</td></tr>
</table>

<table>
<tr><td colspan="3">Cədvəl (dəyişdirilə bilər)</td></tr>
<tr><td>Həftə</td><td>Tarix (planlaşdırılmış)</td><td>Fənnin mövzuları</td></tr>
<tr><td>1.</td><td>15.02.2024</td><td>I. Psixologiyanı kəşf etmək<br>• Psixologiyanın tərifi<br>• Psixologiyanın ilkin hədəfləri- tərif etmək, izah etmək, əvvəlcədən təxmin etmək və kontrol etmək.<br>• Əsas yanaşmalar-bioloji, koqnitiv, bihevioral, psixoanalitik, humanist, mədəniyyətlərarası<br>• Tarixi yanaşmalar-strukturalizm və funksionalizm<br>• Psixoloq, klinik psixoloq və psixiatr fərqi</td></tr>
</table>

| | | |
|---|---|---|
| | | • *Psixologiyada sahələr- sosial və şəxsiyyət, inkişaf, eksperimental, bioloji, koqnitiv, psixometriya* |
| **2.** | **22.02.2024** | **II. Qavrayış və düşüncə**<br>• *Qavrama sisteminin 5 təməl funksiyası*<br>• *Diqqqət*<br>• *Yer müəyyən etmə*<br>• *Məsafəni qavramaq*<br>• *Tanıma və tanıma pozuntusu*<br>• *Qavrayış dəyişməzlikləri (rəng, forma, ölçü)*<br>• *İlluziya*<br>• *Uşaqda qavrayışın inkişafı*<br>• *Düşüncənin xüsusiyyətləri*<br>• *Pozitiv, neqativ və optimist düşüncə* |
| **3.** | **29.02.2024** | **III. Diqqət və Hafizə**<br>• *Yaddaşın üç mərhələsi- kodlama, depolama və xatırlama*<br>• *Emosional hafizə*<br>• *İşlək hafizə*<br>• *Uzunmüddətli hafizə*<br>• *Xatırlamaya mane olan amillər*<br>• *Unutma, unutmada emosional təsirlər*<br>• *Yaddaşı inkişaf etdirmək* |
| **4.** | **07.03.2024** | **IV. Nitq və təfəkkür**<br>• *Məfhumların (anlayışlar) formalaşması haqqında nəzəriyyələr- nümunə modeli, prototip modeli*<br>• *Problem həll etmək- alqoritmik, sezərək təxmin etmək (kəşf) və süni zəka.*<br>• *Problem həll etmə strategiyaları- zehni qəlibin dəyişdirilməsi, analogiyadan istifadə etmək, alt hədəflər formalaşdırılmaq*<br>• *Yaradıcı düşünmə- ölçülməsində 3 əsas yanaşma (psixometrik, case analiz, koqnitiv)*<br>• *İQ ilə yaradıcılığın əlaqəsi*<br>• *Yaradıcı insanların xüsusiyyətləri*<br>• *Yaradıcılığın zehni pozuntularla əlaqəsi varmı?*<br>• *Nitqin 4 qaydası- fonologiya, morfologiya, sintaksis və semantika*<br>• *Çomskinin nitq nəzəriyyəsi*<br>• *Nitqin qazanılma mərhələləri- ağulama, tək söz, iki söz, cümlələr.*<br>• *Mədəniyyətin düşüncəyə təsiri*<br>• *Nitqin düşüncəyə təsiri* |
| **5.** | **14.03.2024** | **V. Zəka**<br>• *Zəka testlərinin etibarlılıq və validliyi*<br>• *İlk zəka testləri- Qalton, Stanford-Bine*<br>• *Veksler zəka şkalaları*<br>• *Qardnerin çoxsaylı zəka nəzəriyyəsi- 7 zəka növü*<br>• *Genetika və zəka* |
| **6.** | **28.03.2024** | **VI. Öyrənmə və şərtlənmə**<br>• *Öyrənmə nədir*<br>• *Əlaqəsiz öyrənmə- alışma və həssaslaşma*<br>• *Əlaqəli öyrənmə- klassik şərtlənmə, vasitəli (operant) öyrənmə) və mürəkkəb öyrənmə*<br>• *Klassik şərtlənmə- Pavlovun eksperimenti, ümumiləşdirmə və ayırd etmə,*<br>• *Rescorlanın eksperimenti*<br>• *Operant şərtlənmə- Skinnerin eksperimentləri, təsir qanunu, mükafat və cəza*<br>• *Tolman – koqnitiv xəritə* |

| | | |
|---|---|---|
| | | • *Qavrama yolu ilə (içgörü) öyrənmə- Köhlerin meymun eksperimenti* |
| **7.** | **04.04.2024** | **VII. Motivasiya**<br>• *Motivasiya nədir, motivə olduğumuz zaman müşahidə edilən xüsusiyyətlər*<br>• *Motivasiya nəzəriyyələri- instinkt, beynin mükafat/zövq mərkəzi, təşviqlər, koqnitiv amillər*<br>• *Bioloji və sosial ehtiyaclar*<br>• *Maslovun ehtiyaclar piramidası*<br>• *Uğur ehtiyacı, uğursuzluq qorxusu*<br>• *Uğurda koqnitiv amillər*<br>• *Daxili motivasiya*<br>• *Özgüvən və özyetərlilik* |
| **8.** | **11.04.2024** | **Aralıq imtahanı** |
| **9.** | **18.04.2024** | **VIII. Stres, sağlamlıq və stresin azaldılması**<br>• *Stres yaradan hadisələrin xüsusiyyətləri*<br>• *Travmatik hadisələr, reaksiyaların mərhələləri*<br>• *Nəzarət edilə bilərlik və təxmin edilə bilərliyin stresə təsiri*<br>• *Həyat hadisələri şkalası*<br>• *Daxili konfliktlər*<br>• *Stresə psixoloji və fizioloji reaksiyalar*<br>• *Ümumi adoptasiya sindromu ( Selye)*<br>• *PTSP-nun əsas əlamətləri*<br>• *Öyrənilmiş çarəsizlik nəzəriyyəsi*<br>• *Stres zamanı yaşanan koqnitiv pozuntular*<br>• *Stresin sağlamlığa təsiri*<br>• *Stresi izah edən 3 nəzəriyyə- psixoanalitik, bihevioral, koqnitiv yanaşma*<br>• *A tipi davranış xüsusiyyətləri*<br>• *Streslə mübarizə yolları- problem mərkəzli mübarizə, emosiya mərkəzli mübarizə, davranışçı texnikalar (biofeedback, relaksasiya təlimi, meditasiya, aerobik məşqlər), koqnitiv texnikalar* |
| **10.** | **25.04.2024** | **IX. İnsan inkişafına ümumi baxış**<br>• *İnkişaf, böyümə və dəyişmə*<br>• *İnkişafın əsas anlayışları*<br>• *İnkişafın əsas prinsipləri*<br>• *İnkişaf sahələri* |
| **11.** | **02.05.2024** | **X. İnsan inkişafına ümumi baxış**<br>*Təməl inkişaf nəzəriyyələri* |
| **12.** | **09.05.2024** | **XI. Şəxsiyyət**<br>• *Şəxsiyyət nədir və necə qiymətləndirilir (keyfiyyətləri necə müəyyən ediblər)*<br>• *Ayzenkin şəxsiyyət faktorları*<br>• *Böyük beşli*<br>• *Psixoanalitik yanaşmaya görə şəxsiyyətin formalaşması*<br>• *Proyektiv testlər haqqında*<br>• *Davranışçı yanaşmaya görə şəxsiyyətin formalaşması*<br>• *Koqnitiv yanaşmaya görə şəxsiyyətin formalaşması*<br>• *Humanistik yanaşmanın şəxsiyyətə baxışı*<br>• *Rocersin – real və ideal mən uyğunluğu*<br>• *Maslovun özünü reallaşdırma nəzəriyyəsi*<br>• *Təkamül yanaşmasına görə şəxsiyyət. Qadın və kişi keyfiyyətlərinin formalaşması.* |
| **13.** | **16.05.2024** | **XII. Psixoloji pozuntular**<br>• *Anormallığın kriteriyaları* |

| | | |
|---|---|---|
| | | • *Normallıq nədir?*<br>• *Psixi xəstəliklərə yanaşmaların baxışı*<br>• *Təşviş pozuntuları (generalizə olunmuş təşviş və panik pozuntular, fobiya və OKP)*<br>• *Depressiya*<br>• *Yanaşmalar depresiyyanı necə izah edir?*<br>• *Şəxsiyyət pozuntuları- antisosial, sərhəddə (borderline)* |
| **14.** | ***23 .05.2024*** | **Təkrar, imtahan haqqında müzakirə** |